# Mədəni dəyərlərə qayğı



**Azərbaycanın qeyri- maddi mədəni dəyərlərinin qorunub saxlanılması, onun gələcək nəsillərə çatdırılması ölkəmizdə həyata keçirilən mədəniyyət siyasətinin tərkib hissəsidir. Bu istiqamətdə Kürdəmir Rayon Mədəniyyət və Turizm Şöbəsi öz üzərinə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışır.**

Şöbə Mədəniyyət və Turizm Nazirliyinin və Kürdəmir Rayon İcra Hakimiyyətinin dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsində fəal mövqeyini dəstəkləyir, bir sıra maraqlı layihələrin reallaşmasında, müsabiqə və festivallarda iştirak etməklə qeyri-maddi mədəni dəyərlərin qorunub gələcək nəsillər üçün saxlanmasında bilavasitə rol oynayır.

2009-cu ilin birinci yarısında qeyri-maddi mədəni dəyərlərin qorunub dəstəklənməsi ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi monitorinq məhz bu istiqamətdə ən təsirli tədbirlərdən idi.

Nazirliyin təşəbbüsü ilə keçirilən dekorativ- tətbiqi sənət üzrə I respublika festivalı qeyri-maddi mədəni irsin qorunub gələcək nəsillərə çatdırılması məqsədi daşıyırdı.

Respublika miqyaslı baxış- müsabiqələrdə rayonumuzun iştirakı təmin edilmiş, müxtəlif yarışmalarda bir sıra uğurlar əldə edilmişdir. Belə ki, "Novruz- Bahar bayramı" rəsm və əl işləri üzrə müsabiqəsinin qalibi Məmmədova Zinyət Aslan qızı III dərəcəli diplomla və 300 manat pulla mükafatlandırılmışdır.

Aprel ayında Şirvan şəhərində xor kollektivləri arasında keçirilən respublika müsabiqəsində iştirak edən Kürdəmir rayon Uşaq incəsənət məktəbinin xor kollektivi uğurla çıxış etmişdir.

Milli musiqi alətləri ifaçılarının IV respublika müsabiqəsində rayonumuzu təmsil edən İbrahimli Qəlbinur (saz) Mingəçevir şəhərindən Fəxri fərmanla qayıtmışdır.

Yevlax şəhərində nəfəsli və zərb alətləri üzrə keçirilən müsabiqədə rayonumuzu təmsil edənlər-Məmmədov Ramin Akif oğlu və Əsgərov Tural Əsgər oğlu yarışmada müvafiq olaraq həvəsləndirici yer tutmuşlar.

Hesabat dövründə rayonda müxtəlif rəsm, şeir, musiqi, əl işləri müsabiqələri, rəsm, foto, kitab sərgiləri və s. təşkil olunmuşdur.

Uşaq incəsənət məktəbinin rəsm şöbəsində təhsil alan uşaqların rəsm işlərinin bir neçəsi beynəlxalq rəsm müsabiqələrinə göndərilmişdir.

2009-cu ilin birinci yarısında rayonun mədəni-maarif müəssisələrində yazıçı M.Hüseynin-100, İ.Şıxlının-90, C.Məmmədquluzadənin- 140 illik yubileyləri ilə əlaqədar tədbirlər həyata keçirilmişdir.

Rayonun mədəni həyatında əhəmiyyətli yer tutan hadisələrdən biri də respublika teatrlarının rayonumuzda çıxışları olmuşdur. İrəvan Dövlət Teatrının ənənəvi çıxışı rayonumuzda bu il də maraqla qarşılanmışdır.

Respublikanın bir sıra konsert təşkilatlarının, eləcə də rayonumuzdan olan həmyerli sənət adamlarının müxtəlif rayon tədbirlərində çıxışları təşkil olunmuşdur.

Əsasnaməyə uyğun olaraq 2009-cu ilin aprel ayında "Dekorativ tətbiqi sənət işləri" adlı I tur rayon Mədəniyyət evində keçirilmiş, qaliblər rayon mədəniyyət və turizm şöbəsi adından mükafatlandırılmışlar. Festivalın II turu 15 may-15 iyun 2009-cu il tarixlərində Şəki şəhərində keçirilmişdir.

Rayonumuz həmin festivalda 4 sənət ustasının əl işləri ilə təmsil olunmuşdur. "Şirvan xalçası", "Quba Çiçi xalçası", müxtəlif geyim nümunələri və "Taxta



üzərində iş" adlı sənət nümunələri geniş tamaşaçı marağına səbəb olmuş və rəğbətlə qarşılanmışdır.

12 rayon mədəniyyət və turizm şöbəsinin və ayrı-ayrı sənətkarların festivala təqdim etdikləri sənət əsərləri münsiflər heyəti tərəfindən seçilmiş və dekabr ayında Bakı şəhərində keçiriləcək III tura buraxılmışdır. III turda rayonumuzun iştirakı nəzərdə tutulmuşdur.

May ayında ulu öndər H.Əliyevin anadan olmasının 86-cı ildönümü ilə bağlı keçirilən "İstedad" baxış-müsabiqəsində dekorativ- tətbiqi sənət nominasiyası üzrə müxtəlif əl işləri nümayiş etdirilərək qaliblərə diplom, fəxri fərman və hədiyyələr verilmişdir.

Mədəni irsin qorunması ilə bağlı rayonda yaşayan sənətkarlarla vaxtaşırı görüşlər təşkil olunur. Rayonumuzda yaşayan xalça ustaları, papaqçılar, misgərlər, eləcə də ağac, gil, daş, toxuma işləri ilə məşğul olanlarla yaradıcılıq axtarışları davam etdirilir.

Kürdəmir rayonunda yaşayan çoxlu sayda sənətkarların yaratdığı sənət nümunələri qorunmadığından ya satılır, ya da müxtəlif yerlərdə itib batır.

Maddi-mənəvi dəyərlərimizin qorunub saxlanması, onların rayonumuzda qalması üçün "Sənətkarlar evi"nin yaradılmasına çox ciddi ehtiyac vardır.

Bu işin maddi təminatı üçün iş adamlarının və sponsorların köməyinə arxalanmaq da olar.

Uzun illər Kürdəmir torpağında yaşayıb- yaradan el sənətkarlarının- aşıq Şakirin, aşıq Əhmədin, məşhur balabançı Həsrət Hüseynovun, xanəndə Eynulla Cəbrayılovun və bir çoxlarının əziz xatirəsini əbədi yaşatmaq, yeni nəsil sənətkarlarının yetişib formalaşmasında faydalı iş görmək mümkündür.

Rayon mərkəzində fəaliyyət göstərən muzeylərin, rayon incəsənət məktəbinin, klub müəssisələrinin qeyri-maddi mədəni dəyərlərin inkişaf etdirilməsində və qorunmasında mühüm rol oynadığı nəzərə alınmalıdır.

Mədəni dəyərlərin saxlanc yeri olan kitabxanalarda çoxlu sayda qiymətli kitablar nəsil-nəsil təqdim edilir. Onların qorunması üçün yaxşı şəraitin yaradılması vacib məsələlərdəndir. Yaxşı maddi-texniki bazaya malik olmayan müəssisələrdə maddi-mədəni dəyərlərin qorunub saxlanması problem yaradır.

Klub müəssisələrində folklorumuzun təbliğinə diqqət və qayğı artırılsa, onlar geyim və milli xarakteri nümayiş etdirən vasitələrlə təmin edilsə, gələcəkdə milli-mənəvi dəyərlərin qorunmasına kömək ola bilər.

**Maddi-mənəvi dəyərlərin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması istiqamətində ölkədə həyata keçirilən məqsədyönlü mədəniyyət siyasətinin dəstəklənməsində Kürdəmir Rayon Mədəniyyət və Turizm Şöbəsinin üzərinə düşən vəzifələr bundan sonra da ləyaqətlə yerinə yetiriləcəkdir.**

**Vaqif ALIYEV,**
***Kürdəmir Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***